# KURSU MÜVƏFFƏQİYYƏTLƏ BAŞA VURMUŞ HƏRBİ QULLUQÇULARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB

*Daxili Qoşunların hərbi hissələrinin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsinin təmin edilməsi, xidməti itlərin təlimi ilə məşğul olan hərbi qulluqçuların peşə hazırlığının təkmilləşdirilməsi məqsədilə oktyabrın 3-dən 29-dək Daxili Qoşunların xidməti itlərin yetişdirmə məntəqəsində ilkin hazırlıq kursu keçirilib. Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmri ilə təsdiq olunmuş proqram əsasında keçirilən kursa Daxili Qoşunların xidməti itlərin yetişdirmə məntəqəsinin, hərbi hissələrin xidməti itlərin tətbiqi manqalarının, eləcə də xidməti itlərin tətbiqi yarımqruplarının komandirləri, baş heyvan təlimçiləri, heyvan təlimçiləri və istehkamçı heyvan təlimçiləri cəlb olunub.*





İlk olaraq, hərbi qulluqçulara xidməti itlər haqqında ümumi məlumat verilib. Kurs müddətində xidməti itlərə qulluğun göstərilməsi, onların saxlanılması və istifadə qaydaları izah edilib. Eyni zamanda, xidməti itlərlə ümumi, xüsusi təlimlərin nəzəri və praktiki olaraq keçirilməsi qaydaları öyrədilib.

Bundan başqa, partlayıcı maddələrin yerinin müəyyənləşdirilməsi, silahlı cinayətkarın axtarılması və tutulması, kütləvi iğtişaşların qarşısının alınması zamanı xidməti itlərdən istifadə qaydaları diqqətə çatdırılıb. Şəxsi heyətlə post-patrul, qarovul xidmətinin təşkili və aparılmasında xidməti itlərdən istifadə qaydaları üzrə praktiki məşğələlər də keçirilib.

Toplanışın sonunda hərbi qulluqçulardan məqbullar qəbul olunub. Kursu müvəffəqiyyətlə başa vurmuş hərbi qulluqçulara şəhadətnamələr təqdim edilib.

**leytenant N.Ağayeva**

# 16073 SAYLI HƏRBİ HİSSƏ YARIŞI UĞURLA BAŞA VURUB

*Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, noyabrın 5-6-da 16075 saylı hərbi hissənin idman zalında Daxili Qoşunların birinciliyi uğrunda əlbəyaxa döyüş üzrə yarış keçirilib.*

Yarışda Ali Hərbi Məktəbdən və hərbi hissələrdən 13 komanda, 84 nəfər hərbi qulluqçu iştirak edib. Şəxsi birincilik uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:

**65 kq çəki dərəcəsində:**

**I yer** - baş leytenant Şahin Göyüşov (99713 saylı hərbi hissə)
**II yer** - kiçik çavuş Elvin Mirzəyev (67987 saylı hərbi hissə)
**III yer** - çavuş Cəfər Cəfərov (16075 saylı hərbi hissə)

**70 kq çəki dərəcəsində:**

**I yer** - baş əsgər Ramid Səfərov (99713 saylı hərbi hissə)
**II yer** - kiçik gizir Amil Bəşirli (16075 saylı hərbi hissə)
**III yer** - baş leytenant Fariz Məmmədov (16077 saylı hərbi hissə)

**75 kq çəki dərəcəsində:**

**I yer** - baş leytenant Pərvin Əliyev (16073 saylı hərbi hissə)
**II yer** - çavuş Ramin Orucov (99713 saylı hərbi hissə)
**III yer** - əsgər Elçin Səmədov (16075 saylı hərbi hissə)

**80 kq çəki dərəcəsində:**

**I yer** - gizir Elçin Güləliyev (16075 saylı hərbi hissə)
**II yer** - leytenant Rövşən Hüseynov (12318 saylı hərbi hissə)
**III yer** - əsgər İsrafil Musasoylu (99713 saylı hərbi hissə)





**85 kq çəki dərəcəsində:**

**I yer** - çavuş Cavad Hacıyev (16073 saylı hərbi hissə)
**II yer** - çavuş Anar Məmmədov (25033 saylı hərbi hissə)
**III yer** - əsgər Ceyhun Balakişiyev (16077 saylı hərbi hissə)

**90 kq çəki dərəcəsində:**

**I yer** - əsgər Müşviq Hüseynov (99713 saylı hərbi hissə)
**II yer** - əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)
**III yer** - baş leytenant Rəşad Bağıyev (17074 saylı hərbi hissə)

**+95 kq çəki dərəcəsində:**

**I yer** - baş çavuş Polad Ramazanov (16073 saylı hərbi hissə)
**II yer** - çavuş Rafiq Təhməzov (67987 saylı hərbi hissə)
**III yer** - baş leytenant İsmayıl Abdullayev (17072 saylı hərbi hissə)

Komanda üzrə nəticələrə gəldikdə, 16073 saylı hərbi hissə 1-ci, 16075 saylı hərbi hissə 2-ci, 99713 saylı hərbi hissə isə 3-cü yerə layiq görülüb.

**Mətbuat xidməti**

## NÜMUNƏVİ XİDMƏT



**16075 saylı hərbi hissənin nümunəvi qadın hərbi qulluqçularından olan gizir Ayşə Babayeva 1991-ci il iyulun 24-də Sumqayıt şəhərində doğulub.**

2009-cu ildə orta məktəbi müvəffəqiyyətlə bitirən Ayşə Sumqayıt Müəllimlər İnstitutunun "Tarix-coğrafiya" fakültəsinə qəbul olub.

Tələbə adını qazanaraq elmin sirlərinə yiyələnməsi onu sevindirsə də gələcəyə olan ümidləri böyük və fərqli idi. Hələ uşaqlıqdan hərbi xidmətdə olan qəhrəman Azərbaycan qızlarına həsədlə baxan balaca qızcığaz onların timsalında sanki özünü görür, gələcəkdə onlara bənzəmək istəyirdi. Elə bu istək, bu arzuyla da institutu bitirdikdən sonra 2015-ci ildə Daxili Qoşunların 16075 saylı hərbi hissəsində xidmət etməyə başlayır.

Xidmətə başladığı ilk günlərdən məsuliyyəti, bilik və bacarığı ilə şəxsi heyət arasında hörmət qazanır. Hazırda hissənin qərargahında məsul icraçı vəzifəsindədir.

Az müddət xidmət etməsinə baxmayaraq, funksional vəzifələrini mənimsəmək, qoyulmuş tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək üçün bütün səylərini cəmləşdirməyi bacarır. Vəzifə borclarının icrasına məsuliyyətlə yanaşdığına, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiyinə görə hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

Hərbi qulluqçuda şəxsi məsuliyyət hissini hər şeydən üstün tutan gizir A.Babayeva kargüzarlığın müvafiq əmr, təlimat və digər rəhbəredici sənədlərin tələblərinə əsasən aparılmasına nəzarət edir.

Daxili Qoşunlarda xidmət etdiyi üçün hər zaman qürur duyduğunu söyləyən gizir A.Babayeva bundan sonra da xidməti vəzifə borclarının icrasına vicdanla yanaşacağını bildirdi.

**leytenant N.Ağayeva**

# XÜSUSİ HƏMLƏ YARIMQRUPLARI VƏ SNAYPERLƏR ARASINDA YARIŞ KEÇİRİLİB

*Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, oktyabrın 4-dən 22-dək qoşunların hərbi hissələrinin xüsusi təyinatlı dəstələrinin xüsusi həmlə yarımqrupları və snayperlər arasında yarışlar keçirilib.*

Yarışın proqramına uyğun olaraq, xüsusi həmlə yarımqrupları arasında xüsusi-taktiki hazırlıq üzrə yarışların keçirilməsi zamanı 10 kilometr məsafəyə təchizatlı marş-qaçışı, tapança və avtomat silahlarından atış çalışmaları, atəş, hərbi tibb, mühəndis hazırlığı və hərbi topoqrafiya üzrə normativlər, 75 metr məsafəyə avtomobilin təxliyyə edilməsi və atıcı-istehkamçılar tərəfindən əlaltı vasitələrdən istifadə edərək partlayıcı vasitələrin quraşdırılması elementləri yerinə yetirilib. Hərbi qulluqçuların praktiki vərdişləri, bölmələrin hazırlığı yoxlanılaraq müvafiq qaydada qiymətləndirilib.

**Yarışların nəticələri aşağıdakı kimi olub.**

**Xüsusi təyinatlı dəstələrin xüsusi həmlə yarımqrupları arasında xüsusi-taktiki hazırlıq üzrə:**

**I yer** - 17074 saylı hərbi hissə
**II yer** - 16073 saylı hərbi hissə
**III yer** - 16077 saylı hərbi hissə

**Xüsusi snayper atış tapşırıqlarının yerinə yetirilməsi üzrə:**

**I yer** - 17074 saylı hərbi hissə
**II yer** - 12318 saylı hərbi hissə
**III yer** - 16077 saylı hərbi hissə

Yüksək nəticələr əldə edən bölmələr və hərbi qulluqçular Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının və hərbi hissə komandirlərinin müvafiq əmrlərilə mükafatlandırılıblar.

**leytenant X.Tağıyeva**









## HƏRBİ XƏBƏRLƏR

### "AZCAN" zirehli maşını üzərində "Taipan" döyüş modulu

Ukraynanın "SpetsTehnoEksport" müəssisəsi "ADEX-2016" sərgisində "AZCAN" Azərbaycan-Kanada birgə müəssisəsinin istehsal etdiyi nəqliyyat vasitəsinin üzərində özünün "Taipan" adlı döyüş modulunu nümayiş etdirib.



"Taipan" döyüş moduluna əsas silah olaraq bir ədəd ikilüləli 23 mm, yardımçı silah olaraq bir ədəd 7.62 (yaxud 12.7 mm) mm çaplı pulemyot, yaxud 30 mm çaplı qumbaraatan qurğu daxil edilə bilir.

"Taipan" 23 mm çaplı pulemyotla 1.8 km məsafədə hədəflərə effektiv atəş aça bilir. Döyüş modulunun çəkisi 350 kiloqramdır. Modulun maşından 500 metr kənar məsafədən idarə olunması mümkündür.

### İndoneziya yeni zirehli maşınını təqdim edib

İndoneziyanın "PT Tugas Anda" şirkətinin məhsulu olan zirehli maşın "Turangga" adlandırılıb. Bu zirehli transportyor "Ford-550"nin şassisi üzərində yaradılıb. Müxtəlif tip silahlarla təchiz edilə bilən maşın V6 müdafiə dərəcəsinə malikdir. "Turangga"nın ekipajı 2 nəfərdir. Maşında 10 döyüşçü üçün yerlər yaradılıb.



"Ford V8-6" mühərriki ilə təchiz edilən "Turangga"nın çəkisi 8-9 ton, sürəti isə 110 km/saatdır.

### "Qorqud" zenit toplarının ilk partiyası Türkiyə Silahlı Qüvvələrində

ASELSAN şirkətinin "FNSS ZMA-30" tırtıllı nəqliyyat platforması üzərində hazırladığı "Qorqud" zenit top kompleksi Türkiyənin Quru Qoşunlarına təhvil verilib. Öz sinfində modern, aşağı yüksəklikdə hava hücumundan müdafiə silahı hesab olunan "Qorqud" proqramlaşdırılmış mərmilərlə atəş açır.



35 mm çaplı 2 lüləli zenit topları radarla kompleks şəkildə çalışır. Radarlar hava hədəflərini 30 km-dək məsafədən təsbit etməklə yanaşı, silahı hədəfə istiqamətləndirir. Hazırlanmış xüsusi proqram hədəfə qədər məsafəni hesablayaraq, mərmilərin hədəfin hansı məsafəsində partladılmasını təmin edir.

**"AzeriDefence"**

## Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti mayor Kamran Atakişiyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12318 saylı hərbi hissənin şəxsi heyəti mayor Elşən Cəbiyevə **qardaşının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000


*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


ƏSGƏR

№ 22 (488)
15 noyabr 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# PREZİDENT, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV ÖN XƏTDƏ YERLƏŞƏN KOMANDA İDARƏETMƏ MƏNTƏQƏSİNDƏ ƏMƏLİYYAT ŞƏRAİTİ İLƏ TANIŞ OLUB

*Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olub. AZƏRTAC xəbər verir ki, Müdafiə Naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Ali Baş Komandan İlham Əliyev komanda idarəetmə məntəqəsindən düşmənin mövqelərini izlədi.*

*Dövlətimizin başçısına cəbhə xəttində ümumi vəziyyətlə bağlı məruzə edildi.*

*Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev döyüş tapşırığını yerinə yetirərkən xüsusi fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.*

*Dövlətimizin başçısı hərbçilərlə görüşdü və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış etdi.*

**Prezident İlham Əliyevin çıxışı**

Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir. Uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir.

Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir.

Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. Biz şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgərlərimiz, zabitlərimiz olubdur. Mən Hərbi Hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi - tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq.

Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları vətənpərvər vətəndaşlardır. Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır. Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir. Aprel döyüşləri bunu bir daha göstərdi. Aprel döyüşlərindən sonra ordumuzun maddi-texniki təminatı ilə bağlı əlavə tədbirlər görülür, vəsait ayrılıb, ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlar, texnika alınır və artıq bizim sərəncamımızdadır.





Ordumuzun döyüş qabiliyyəti ilə bərabər, vətənpərvərlik ruhu da yüksəkdir. Biz öz torpağımızdayıq, bura Azərbaycandır. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır. Biz öz torpağımızdayıq. Heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik. Aprel döyüşləri bunu bir daha sübut etdi.

1994-cü ilin yanvar ayında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmişdir, 22 kənd işğalçılardan azad edilmişdir. Bu, böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq.

Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü Ordumuz var. Biz Ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üzüzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik!

Sağ olun!

x x x

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB

***Noyabrın 8-də Daxili İşlər Nazirliyində "DİN-in Kollegiya qərarlarının icrası"nın, "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı, tanınması mümkün olmayan meyitlərin şəxsiyyətinin müəyyənləşdirilməsi sahəsində görülən işlər"in və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə"nin vəziyyətinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.***

Respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, insanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının etibarlı təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

O da vurğulanıb ki, daxili işlər orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər bütövlükdə cari ilin ötən dövründə də qənaətbəxş olub, əldə edilmiş müsbət təmayüllər bu müddətdə nəinki qorunub-saxlanılıb, əksinə, daha da inkişaf etdirilib. Daxili İşlər Naziri son illər hər üç istiqamətdə işin daha səmərəli yerinə yetirildiyini, eyni zamanda, uğurlarla yanaşı, əməliyyat-xidməti fəaliyyətdə hələ də müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu diqqətə çatdırıb.

Gündəlikdəki birinci məsələ barədə məruzə ilə Daxili İşlər Nazirinin müavini-Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi polis general-leytenantı Fazil Quliyev çıxış edib.

Məruzəçi qeyd edib ki, Daxili İşlər Nazirliyi tərəfindən respublikada cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin və ardıcıllığının təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, effektiv idarəetmə sisteminin formalaşdırılması, bütövlükdə, fəaliyyətin qanunvericiliyin tələblərinə, dövlət başçısının tapşırıqlarına uyğun qurulması məqsədilə mühüm işlər görülüb. Həyata keçirilən tədbirlər ölkədə kriminogen durumun uzun illər tam nəzarətdə saxlanılmasını, əməliyyat şəraitində baş verən neqativ dəyişikliklərə qarşı çevik cavab tədbirlərinin görülməsini, xidməti vəzifələrin xalqın və dövlətin maraqlarına uyğun yerinə yetirilməsini şərtləndirib, vətəndaş məmnunluğunu təmin edib.

Baş Cinayət Axtarış İdarəsinin rəisi polis polkovniki Arzu Daşdəmirov gündəlikdəki ikinci məsələ barədə məruzə ilə çıxış edərək deyib ki, əməliyyat şəraitinə və cinayətlərin açılmasına əhəmiyyətli təsiri baxımından təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışının vəziyyəti daim diqqət mərkəzində saxlanılıb, bu sahədə görülən işlər əvvəlki Kollegiya iclaslarında və əməliyyat müşavirələrində müzakirə olunub, fəaliyyətin daha da yaxşılaşdırılması üçün yerlərə yazılı göstərişlər göndərilib, şəhər, rayon polis orqanlarına əməli köməkliklər edilib.



Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində görülmüş işlər barədə məruzə edən Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi polis general-mayoru Həzi Aslanov bildirib ki, təşkilatçılıq fəaliyyətinin və nəzarət mexanizminin yaxşılaşdırılması, regional şöbələrin və ərazi polis orqanlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətində də tədbirlər davam etdirilib.

Məruzə ətrafında çıxış edənlər görülmüş işlərdən, əldə olunmuş uğurlardan, eyni zamanda, xidməti fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqlardan, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

İclasa yekun vuran nazir gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu qeyd etməklə yanaşı, mövcud nöqsanların aradan qaldırılmasını, ilin sonunadək əsaslı dönüş yaradılmasını tələb edib, bu istiqamətdə konkret tapşırıq və tövsiyələrini verib.

Daxili İşlər Naziri Azərbaycan Prezidenti cənab İlham Əliyevin məqsədyönlü, ardıcıl şəkildə həyata keçirdiyi hüquq-mühafizə siyasəti, şəxsi heyətə göstərdiyi yüksək qayğı nəticəsində ölkəmizdə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini sahələrində əldə olunan uğurları xatırladıb, hər bir əməkdaşın bu ali diqqətə layiqli cavab verməsinin vacibliyini vurğulayıb.

İlin başa çatmasına 2 aydan da az müddət qaldığını diqqətə çatdıran cənab Ramil Usubov əldə edilmiş müsbət nəticələrin davam etdirilməsini, arxayınçılığa yol verilməməsini tələb edib, eyni zamanda, profilaktik işin, xüsusilə yeniyetmə və gənclər arasında, təhsil müəssisələrində yerli hüquq-mühafizə orqanlarının, vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə antinarkotik təbliğat və təşviqatın daha da gücləndirilməsinin, cinayətlərin qarşısının alınmasının və bağlı qalmış cinayətlərin açılması istiqamətində zəruri tədbirlərin müəyyənləşdirilib həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Qeyd edilib ki, qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərin açılması, əvvəllər məhkum olunmuş şəxslər və yetkinlik yaşına çatmayanlar tərəfindən, eləcə də ailə münaqişəsi zəminində törədilən cinayətlərin qarşısının vaxtında alınması üçün adekvat ölçülər götürülməli, hər bir orqan və hissədə qanunçuluğun, nizam-intizamın gücləndirilməsi, vətəndaşların qəbulu, onların müraciətlərinə vaxtında və operativ şəkildə münasibət, əməkdaşların tapşırılmış sahəyə məsuliyyətinin, peşəkarlıq və hazırlıq səviyyələrinin daha da yüksəldilməsi istiqamətində fəaliyyət daha böyük əzmlə davam etdirilməlidir.

Nazir əmin olduğunu bildirib ki, şəxsi heyət qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu tələblərin, verdiyi tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, sabitliyin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, dövlətə, xalqa, Prezidentə sədaqətlə xidmət edəcək, həmişə olduğu kimi, cari ili də yüksək göstəricilərlə başa vuracaqdır.

# 17 NOYABR - MİLLİ DİRÇƏLİŞ GÜNÜ

**Artıq neçə ildir ki, hər il noyabrın 17-si dövlətimiz və xalqımız tərəfindən "Milli Dirçəliş Günü" kimi bayram edilir. 1988-ci il noyabrın 17-də xalq Azadlıq meydanına axışmaqla 70 il Azərbaycanı əsarətdə saxlayan Sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdı.**

Həmin gün Azərbaycan xalqı bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, o azad olmağa layiq xalqdır.

XX əsrin 80-ci illərinin ortalarından etibarən SSRİ-də baş verən ictimai-siyasi proseslər nəticəsində Azərbaycanın müstəqillik qazanması üçün geniş imkanlar yaranmışdı. Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlılara qarşı yönəldilmiş soyqırım Sovet ordusu tərəfindən dəstəklənirdi. Təpədən-dırnağadək silahlanmış erməni quldurları əliyalın, dinc əhalini müdhiş bir amansızlıqla qətlə yetirirdilər.

Vəzifə kürsüsünü qoruyub saxlamaq naminə Moskva qarşısında acizlik göstərən o zamankı rəhbərlik xalqın və Vətənin həqiqi mənafeyinin keşiyində dura bilmirdi. Bütün bu ədalətsizliklərlə və ərazi bütövlü yürə edilən qəsdlərlə razılaşmayan Azərbaycan xalqı 17 noyabrda ayağa qalxdı. Həmin gün Sovet müstəmləkə rejimi şəraitində repressiyalara məruz qalmış milli şüur yenidən oyandı, özünü dərkə doğru bir dönüş başlandı.

Sovet rejimindən Ermənistanda və Dağlıq Qarabağda erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış "Meydan hərəkatı" tezliklə Azərbaycanın müstəqilliyinə çağıran şüarlara keçdi. Meydanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı dalğalandı.

Dekabrın 4-dən 5-nə keçən gecə Sovet ordusu "Meydan hərəkatı"nı yatırmağa nail oldu. Minlərlə azadlıqsevər insan həbs edilərək zindanlara salındı. Lakin xalqın mübarizə əzmini qırmaq mümkün deyildi. Az sonra tarix öz sözünü dedi. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu.

**17 noyabr xalqın milli-azadlıq hərəkatının başlanğıc günü - Milli Dirçəliş Günü kimi tarixə düşdü.**

Bu gün Azərbaycan Respublikası milli müstəqillik yolunda mətin addımlar atır, Azərbaycan Demokratik Respublikasının varisi kimi dünya dövlətlər birliyində tamhüquqlu, layiqli yer tutur. Bu işdə xüsusi xidmətləri olan Ümummilli Lider Heydər Əliyev dövlətçiliyimizin sosial, siyasi, milli-mənəvi bünövrəsinin strateji istiqamətlərini müəyyən etmiş, onun ideoloji təməlini yaratmışdır. Ulu Öndərin fikirləriylə desək, "milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır".

**Azərbaycan xalqını, o cümlədən qoşunlarımızın bütün hərbi qulluqçularını dirçəliş günü münasibətilə ürəkdən təbrik edir, onlara xoşbəxtlik, yüksək rifah və əmin-amanlıq arzulayırıq.**

**Mətbuat Xidməti**

# DAXİLİ QOŞUNLARDA XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ƏSGƏRLƏRİN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

***Noyabrın 12-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin andiçmə mərasimi keçirilib. Mərasimdə Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisi, Veteranlar şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.***



Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi-Göstərici Hərbi Orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

Hərbi hissə komandiri polkovnik Salamat Cəfərov çıxış edərək, əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Gənc əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbrik çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları qeyd edilib.

Təbrik məktubunda həmçinin, sıralarımıza daxil olan hər bir gəncin Vətənə sədaqətlə xidmət edəcəyinə, xidməti-döyüş tapşırıqlarının keyfiyyətlə yerinə yetirilməsində öz fədakar xidmətini əsirgəməyəcəyinə, Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacağına, dövlətçiliyimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişaf və tərəqqisi naminə uğurlar əldə edəcəyinə əminlik ifadə olunub.

Daha sonra təbrik və tövsiyələrini çatdırmaq üçün söz general-mayor Ş.Xəlilova verilib.

Hərbi andiçmə mərasiminin «12 noyabr - Azərbaycan Respublikasının Konstitusiya günü»ndə keçirilməsinin ikiqat əlamətdar hadisə olduğunu vurğulayan general-mayor Ş.Xəlilov diqqətə çatdırıb ki, torpaqları düşmən tapdağı altında qalan Vətənin hər bir əsgəri respublikamızın ərazi bütövlüyünü bərpa etməyə hər an hazır olmalı, Vətən, xalq qarşısında müqəddəs borcunu ləyaqətlə yerinə yetirməlidir.

Çıxış edən Veteranlar Şurasının üzvləri, əsgər valideynləri də gənc əsgərləri səmimi qəlbdən təbrik edərək onlara xidmətlərində müvəffəqiyyətlər arzulayıblar. Qeyd olunub ki, hərbi andı qəbul edən hər bir hərbi qulluqçu birmənalı olaraq dərk etməlidir ki, Vətənə, millətə, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməlidir.

Mərasim şəxsi heyətin sıra meydanından təntənəli keçidi ilə başa çatıb.

# TƏLİMİN TAM VƏ KEYFİYYƏTLƏ YERİNƏ YETİRİLMƏSİ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞININ GÖSTƏRİCİSİDİR

***Digər hüquq mühafizə orqanları ilə birlikdə regionlarda ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirən hərbi qulluqçularımızın silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdiyi xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.***







16073 saylı hərbi hissənin xüsusi təyinatlıları da qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi fədakarlıq göstərir.

Dəstə komandiri mayor Anar Rizvanovun sözlərinə görə, dəstə hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə qadirdir.

Vəzifə borclarından irəli gələn tələblərdən danışan mayor A.Rizvanov hava şəraitindən asılı olmayaraq, təlim-məşq proseslərinin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyət təlimlər zamanı qarşıya qoyulmuş tapşırıqları məsuliyyətlə icra edir.

Növbəti praktiki təlim "Silahlı cinayətkarlar tərəfindən ələ keçirilmiş sərnişin avtobusunun azad edilməsi" mövzusunda idi. Alınmış kəşfiyyat məlumatlarına əsasən, sərnişinlə dolu avtobusu ələ keçirmiş cinayətkarlar tapança, avtomat və əl qumbaraları ilə silahlanmışlar. Girovların azad olunması və silahlı cinayətkarların məhv edilməsi üzrə əməliyyata start verilir. Qərara alınır ki, hərəkətdə olan nəqliyyat vasitəsini saxlamaq məqsədilə süni əngəl yaradılsın. Yəni məqsədə nail olmaq üçün müəyyən aldadıcı manevrlərdən istifadə edilir. Hücum qrupu əlverişli şəraitdən yararlanaraq avtobusa yaxınlaşır. Səs qumbarası tətbiq edilir. Partlayışdan dərhal sonra xüsusi təyinatlılar avtobusun qapı və pəncərələrindən içəri daxil olur, cinayətkarlar zərərsizləşdirilir və girovlar azad edilir. Beləliklə, xüsusi-taktiki təlim uğurla başa çatdırılır.

Haqqında bəhs edilən xüsusi-taktiki təlim xüsusi təyinatlılarımızın peşə vərdişlərinin artırılması məqsədilə keçirilən məşğələlərdən biri idi.

Hərbi qulluqçularımızın təlim və məşğələləri tam və keyfiyyətlə yerinə yetirməsi onların yüksək döyüş hazırlığının göstəricisidir.

**baş leytenant T.Əlizadə**

# KOMENDANT BÖLÜYÜNÜN ŞƏXSİ HEYƏTİ YÜKSƏK HAZIRLIĞA MALİKDİR

***Qarşıya qoyulmuş bütün tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi hissədəki bölmələrin gündəlik fəaliyyətinin nəticəsidir, desək, yanılmarıq. Bu baxımdan, qoşunların 16073 saylı hərbi hissəsinin komendant bölüyü də üzərinə düşən vəzifələri uğurla icra edir.***







Hərbi şəhərciyin, obyektlərin, anbarların etibarlı mühafizəsini təşkil edən komendant bölüyünün hərbi qulluqçuları yüksək fiziki göstəricilərə və atəş hazırlığına malikdir. Bu sözləri bölük komandiri baş leytenant Ruslan Əkbərov bildirdi. O, əldə olunmuş nailiyyətlərin qorunub saxlanılması məqsədilə şəxsi heyətin mütəmadi olaraq həm nəzəri, həm də praktiki məşğələlərə cəlb olunduğunu diqqətə çatdırdı. Əlavə etdi ki, keçirilən təlimlər hərbi qulluqçularda əzmkarlıq, dözümlülük, ayıq-sayıqlıq kimi keyfiyyətlərin təkmilləşdirilməsində mühüm rola malikdir.

Bölük komandiri, həmçinin, posta çıxan hərbi qulluqçuların daima ayıq-sayıq xidmət aparmalarının, mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılmasının, təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinin, eyni zamanda, asudə vaxtın səmərəli təşkilinin diqqətdə saxlanılan vacib məsələlərdən olduğunu qeyd etdi.

Söylədi ki, qarovul nəfərlərilə tərbiyə işinin səmərəli təşkili üçün bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Samir Abdullayev əlindən gələni əsirgəmir. Bu işdə fəalların imkanlarından geniş istifadə olunur.

Qarovul rəisləri leytenant Raqif Haqverdiyev, baş gizir Rauf Quliyev, qarovul rəisinin köməkçisi baş əsgər Adil Əsgərov, əsgərlər Amal Məmmədov, Səbuhi Vahablı və Toğrul Əliyev üzərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

**baş leytenant T.Əlizadə**

# DAXİLİ QOŞUNLARIN MUSİQİ SALNAMƏSİ-NÜMUNƏVİ-GÖSTƏRİCİ HƏRBİ ORKESTR

***Kollektivin ən böyük arzusu - zəfər günü Şuşada, Laçında, Xankəndidə və digər işğal altında olan torpaqlarımızda qələbə marşını ifa etməkdir***

Azərbaycan mədəniyyətinin mühüm bir qolu sayılan musiqimiz çoxəsrlik inkişaf yolu keçib, nəsildən-nəslə ötürülərək təkmilləşib və daha da zənginləşib. Xüsusilə XX əsrdə yaradıcılıq axtarışlarının diapazonu genişlənib, yeni-yeni musiqi janrlar, melodiya və ritm zənginliyi ilə fərqlənən müxtəlif rəqslər yaranıb.

Bu janrlar arasında önəmli yer tutan hərbi musiqi zamanından və məkanından asılı olmayaraq insanları daim mübarizəyə və qələbəyə səsləyib.

Əsrin sonlarında ölkəmizə qarşı torpaq iddiası qaldırmış erməni qəsbkarları ilə aparılan müharibə şəraitində yaranan bu nəğmələr o illərin bütün ağrı, acısını əks etdirməklə yanaşı, düşmənə nifrət, Vətənə sevgi, dövlətə sədaqət hissləri aşılayırdı. O çətin illərdə formalaşan Daxili Qoşunların Nümunəvi-Göstərici Hərbi Orkestri də hərbi qulluqçularda ruh yüksəkliyini, qələbəyə inam hissini gücləndirmək üçün əlindən gələni əsirgəmirdi.

1994-cü il noyabr ayının 17-dən etibarən hər il yaranmasının ildönümünü qeyd edən Nümunəvi-Göstərici Hərbi Orkestr fəaliyyət göstərdiyi bu zaman kəsiyində sözün əsl mənasında nümunəvi olduğunu sübut edib. Çünki orkestrin sıralarına daxil olan musiqiçilər nəinki peşəkar ifaları, eyni zamanda bütün varlığı ilə Vətənə, torpağa bağlı olmaları ilə də seçilirlər. Bu ənənə bu gün də davam edir.



Orkestrin rəisi kapitan Hüseyn Əliyevdir. Orkestrin nəzdində Azərbaycan Respublikasının əməkdar artisti kapitan Cahangir Qurbanovun rəhbərliyi ilə mahnı və rəqs ansmblı fəaliyyət göstərir. Kollektiv saz, tar, ud, qarmon, balaban, tütək, fleyta, qoboy, klarnet, şeypur, alt, tenor, bariton, saksofon, trombon, tuba, böyük və kiçik təbil ifaçılarından ibarətdir. Azərbaycan Respublikasının xalq artisti leytenant Fidan Hacıyeva, Azərbaycan Respublikasının əməkdar artisti baş leytenant Zaur Əmiraslanov, gizir Vəsilə İbrahimova və Rəna Əliyeva, Prezident təqaüdçüsü Amil Məmmədov, Zabitə Alıyeva orkestrin solistləridir.

Kollektivin Bədii rəhbəri və Baş dirijoru Daxili Qoşunların Baş İdarəsində Hərbi orkestr xidmətinin rəisi, Azərbaycan Respublikasının əməkdar artisti polkovnik-leytenant İlqar Novruzovdur. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının məzunu olan polkovnik-leytenant İ.Novruzov kollektivin yarandığı ilk günlərdən öz əməyini, istedadını hərbi musiqinin inkişafına yönəldib. "Daxili Qoşunların marşı", "Ali Hərbi Məktəbin marşı", "Alay marşları", Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə həsr olunmuş "Parlaq Günəş", "Azərbaycan", "Vətən", "Əsgər Anası" kimi musiqi əsərləri onun yaradıcılığının məhsuludur.

Bu baxımdan deyə bilərik ki, Baş hərbi dirijorumuzun Azərbaycan musiqi sənətinin inkişafında da xidmətləri, fəaliyyətləri danılmazdır. Bunun nəticəsidir ki, polkovnik-leytenant İ.Novruzov dəfələrlə Daxili İşlər Naziri və Daxili İşlər Nazirinin müavini- Daxili Qoşunların Komandanı tərəfindən mükafatlandırılıb. Lakin ən böyük mükafat, özünün də qeyd etdiyi kimi, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən verilən "Əməkdar artist" fəxri adıdır. Əslində, bu fəxri ad onun 22 illik yaradıcılığına verilən ən böyük qiymətdir.

Nümunəvi-Göstərici Hərbi Orkestr Daxili Qoşunlarla birgə addımlayıb, istər ən ağır və çətin, istərsə də ən əlamətdar və sevincli günlərdə şəxsi heyətin döyüş ruhunun yüksəldilməsini özünə şərəf borcu bilib.

Ötən müddətdə kollektivin həm tərkibi, həm də yaradıcılıq səviyyəsi dəyişib, professional yönümdə formalaşıb. İllər ötdükcə yaxşı mənada ifaçılıq dəsti-xətti ilə fərqlənən orkestrin repertuarına bu gün dünyanın dahi bəstəkarları Bethoven, Mosart, Şopen, Çaykovski, eləcə də Ü.Hacıbəyov, F.Əmirov, Q.Qarayev, S.Ələsgərov, V.Adıgözəlov, T.Quliyev kimi dahi bəstəkarların əsərləri daxil edilib. Orkestrin repertuarında estrada və caz musiqilərinə də müraciət olunur, lakin milli ruhlu marşlar və mahnılar daha çox üstünlük təşkil edir.

Kollektiv indiyədək yüzlərlə rəsmi tədbirlərdə, müxtəlif idarə və təşkilatlarda, mədəniyyət ocaqlarında və ölkənin televiziya kanallarında uğurlu çıxışlar edib. Lakin kollektiv cəbhə bölgəsində yerləşən hərbi hissələrdə təşkil edilən konsert proqramlarındakı çıxışları ən böyük xidmətləri kimi dəyərləndirir. Böyük fəxr hissi ilə bildirirlər ki, bu cür tədbirlər həqiqətən də hərbi qulluqçularımızın döyüş əzmini yüksəldir, qələbəyə inamı artırır.

Bu gün orkestrin normal fəaliyyəti üçün demək olar ki, hər cür şərait yaradılıb. Yeni avadanlıqlar, musiqi alətləri, səsgücləndiricilər alınıb, yerləşdiyi bina əsaslı şəkildə təmir olunub. Yaradılmış hərtərəfli şəraiti Daxili İşlər Naziri və Daxili Qoşunlar Komandanlığı tərəfindən onlara göstərdiyi xüsusi diqqət və qayğı kimi dəyərləndirən kollektiv bundan sonra da peşəkarlığını artırmaq və Daxili Qoşunların adını hər zaman zirvələrdə tutmaq üçün əzmlə çalışacaqlarını bildirir.

**leytenant X.Tağıyeva**



*Şəhidlərimiz*

# "TORPAQDAN PAY OLMAZ!"

***Vətənimizin ağrılı-acılı günlərində Qaxın igid oğulları silaha sarılaraq, erməni daşnaklarına qarşı döyüşə yollandılar. Bu müqəddəs amal uğrunda rayon sakinlərindən 118 nəfəri şəhid, onlarla qaxlı isə əlil oldu.***

***Qaxın qədim kəndlərindən olan Qumun cəsur oğullarından 7 nəfəri şəhid olmuş, 2 nəfəri isə itkin düşmüşdür. Kəndin vətənpərvər gənclərindən şəhidlik zirvəsinə yüksəlmiş İslam Yusifov, həmçinin, döyüşlər zamanı itkin düşən və taleyi bu günə kimi qaranlıq qalan İmran Şamxalov Daxili Qoşunların cəsur döyüşçüləri idilər.***



YUSİFOV İSLAM ABDURƏHİM OĞLU

Sıravi İslam Abdurəhim oğlu Yusifov 1974-cü il may ayının 25-də Qax rayonunun Qum kəndində müəllim ailəsində dünyaya göz açıb. Atası Abdurəhim müəllimin və anası Xavat müəllimənin min bir zəhmətlə böyüdüb tərbiyə etdiyi beş övladın (İslam, Xədicə, Rəşad, Təranə və Tərlan) biri, eyni zamanda, ailənin ilki və ən sevimlisi idi İslam. Orta təhsilini 1981-1991-ci illərdə Z.Müslümov adına doğma Qum kənd orta məktəbində almışdı. İslam yaxşı oxumaqla yanaşı, idmana da böyük maraq göstərirdi. Hələ orta məktəbdə oxuyarkən Qaxda ağırlıqqaldırma üzrə yeniyetmələr arasında keçirilən yarışlarda fəal iştirak edərək, müxtəlif dərəcəli diplom və fərmanlarla təltif edilmişdi. O, həmçinin, rayonda "İnformatika" fənni üzrə məktəblilər arasında keçirilən olimpiadanın da qalibi olmuşdu.

Orta məktəbdə oxuyarkən İslama dərs demiş informatika müəlliməsi Kifayət Hacıxanova Vətən yolunda şəhid olmuş igid oğullarımızın əziz xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını deyir:

«İslam haqqında ancaq xoş fikirlər söyləmək olar. Ziyalı ailəsində böyüyüb tərbiyə alan İslamın ata və anası mənim müəllimlərim olub. Mən isə İslama 10-11-ci siniflərdə oxuyarkən informatika fənnindən dərs demişəm. İnformatikaya, o cümlədən müasir texnologiyaya böyük maraq göstərirdi. Rayonumuzda informatika üzrə keçirilən olimpiadanın qalibi olanda İslamın sevincinin həddi-hüdudu yox idi. O, həmçinin, idmanla da məşğul olurdu. Gözəl arzuları var idi...

Yaxşı yadımdadır, mən o zaman məktəbimizin komsomol təşkilatının katibi idim. İslam isə mənim ən fəal köməkçilərimdən biri idi. Olduqca çalışqan, tərbiyəli və vətənpərvər şagird kimi xatirimdə qalıb. Biliyinə və təşkilatçılığına isə söz ola bilməzdi. İslam, məktəbimizdə hər kəsin- həm müəllimlərin, həm də şagirdlərin dərin



hörmət və rəğbətini qazanmışdı...

Bu gün İslam kimi qəhrəman oğullarımızın şərəfli həyat və döyüş yolu gələcəyimiz olan gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsidir».

Kifayət müəllimə, həmçinin, söhbət əsnasında İslamla vaxtı ilə bir sinifdə təhsil almış digər şagirdi İmran Şamxalovun (Daxili Qoşunların sıravi döyüşçüsü kimi Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı itkin düşmüşdür - A.Ə.) adını qeyd edərək, onun vətənpərvər, eyni zamanda, çalışqan şagird kimi bu gün də yad olunduğunu bildirdi.

Orta məktəbin 9-cu sinfində oxuyarkən cib dəftərçəsinə çəkdiyi şəklə baxanda, İslamın hələ yeniyetməlik çağlarından əsl vətənpərvər olduğunu görmək olur. Onun çəkdiyi Azərbaycan Respublikası xəritəsinin yuxarı sol küncündə "Qarabağ bizimdir, Azərbaycanındır!" sözləri yazılıb. Bundan əlavə, xəritənin üzərində bədnam qonşularımız tərəfindən Qarabağ bölgəsinə sarı uzanmış xain əli biləyindən tutan digər bir əlin üzərində isə "Torpaqdan pay olmaz!" sözləri qeyd olunub.

İ.Yusifov orta təhsilini başa vurduqdan sonra bir müddət kənddəki kolxozda əmək fəaliyyətinə başlayaraq, alın təri ilə qazandığı məvaciblə ailəsinə maddi dəstək olmağa çalışırdı.

**03 iyul 1992-ci il.** Nəhayət, İslamın böyük həvəslə gözlədiyi gün gəlib çatdı. Məhz bu tarixdə o, Qax Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılır. Vətən yolunda hər zaman canından keçməyə hazır olan İslam müqəddəs torpaqlarımızın müdafiəsinə böyük həvəslə yollanır. Daxili Qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsinin "sıravi" hərbi qulluqçusu kimi xidmətə başlayan İslam bir müddət sonra Vətənə olan müqəddəs borcunu cəbhənin qaynar nöqtələrindən biri olan Ağdərə bölgəsində yerinə yetirməyə başlayır.

***1992-ci ilin sentyabr ayında Ağdərə rayonunun Mehmanə kəndinin müdafiəsi uğrunda gedən şiddətli döyüşlər İslamın son döyüşü olur. Bu döyüşdə beş güllə yarası alan İslam əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlir...***

Vətən uğrunda canını qurban verən




*İslamın hərbi xidmətdən öncə öz əli ilə çəkdiyi şəkil*

İ.Yusifov sentyabrın 16-da doğma Qum kənd qəbristanlığında dəfn olunub. Qax rayonu Çinarlı kənd natamam orta məktəbinə onun adı verilib.

Şəhid İ.Yusifovun həyat və döyüş yolundan bəhs edən yazılara görkəmli ziyalılarımız - Hikmət Əzimovun 1996-cı ildə Bakıda nəşr olunan "Qax şəhidləri" kitabında, jurnalist Firuzə Bəyməmmədqızının (Əsədullayeva) "Vağzalı çalınır..." adlı kitabında yer alan "İslamı həmişə gülən görmüşəm", jurnalist Dostu Məmmədqızının "İdman" qəzetinin 21.11.1992-ci il tarixli sayında dərc olunan "25 may günü", Təranə Fətullaqızının "Müxalifət" qəzetinin 12.12.1992-ci il tarixli sayında dərc olunan "Qisməti şəhidlik oldu" başlıqlı məqaləsində, həmçinin Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

Bundan əlavə, şairə Nailə Ramazanovanın Vətənin müdafiəsi uğrunda şəhid olmuş qəhrəman oğullarımıza həsr etdiyi "Yanım, yanmayım?" adlı şeirinin bir bəndində cəsur silahdaşımız olan İslamın adı çəkilib. Şeirin iki bəndini təqdim edirəm:

***Vətənin dar günü lazımam deyən,***
***Sarılıb silaha cəbhəyə gedən.***
***Ölümün gözünə dik durub baxan,***
***İgid oğullara yanım, yanmayım?***

***Belə ölənlərin içində bizdən,***
***İndi deyirik ki, İslam da vardı.***
***Təzə tər qönçəydi, açmamış soldu,***
***Qönçəykən solana yanım, yanmayım?***

İslamla Qum kənd orta məktəbində 11 il birgə təhsil almış sinif yoldaşı, görkəmli jurnalist Şərafət Muquzova (*"Yeni Liqa" qəzetinin təsisçisi və baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin və digər ictimai təşkilatların üzvüdür. İctimai xidmətlərinə görə "Qızıl qələm", "Xalqın nüfuzlu ziyalısı", "Ustad sənətkar" mükafatlarına, eləcə də bir çox təşəkkürnamə və fəxri diplomlara layiq görülüb. "Şəfa" təxəllüsü ilə tanınır - A.Ə.*) "Ad günün mübarək, ŞƏHİDİM!!!" başlıqlı məqaləsində igid döyüşçünü xatırlayaraq, onun həyat və döyüş yolu barədə qısa məlumat vermişdir.

Məlumat üçün qeyd edək ki, İ.Yusifovun adı Daxili Qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda 492-ci sıra nömrəsi ilə qeydə alınması və Ağdərə rayonunda həlak olması (15.09.1992) göstərilib.

Daxili Qoşunların sıralarında İslam kimi igid silahdaşlarımız bu gün də şərəflə xidmətlərini davam etdirirlər. Bu cür vətənpərvər oğulları olan qüdrətli ordumuz işğal altında qalan müqəddəs torpaqlarımızı düşməndən azad etməyə hər zaman hazırdır!

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan A.Əhmədov**
**Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**

# HƏRBİ QULLUQÇULARIMIZ MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN MƏZARINI ZİYARƏT EDİB



*Nə qədər Azərbaycan var, Mübariz İbrahimov kimi oğullar da var, olub, olacaq...*



***Zaman-zaman qəhrəmanlar yetişdirən, Babək, Koroğlu və digər igidləri ilə daima fəxr edən Azərbaycan torpağı bu gün də sinəsini düşmən gülləsinə sipər edən cəsur, vətənpərvər oğullarıyla öyünür. Vətən uğrunda canından keçərək əbədiyyətə qovuşan, şərəflə yad edilən qəhrəmanlarımızdan biri də Mübariz İbrahimovdur.***

***Onun haqqında çox yazılıb, çox deyilib. Xalqımız var olduqca da yazılacaq, deyiləcək. Mübariz həmişə qəlblərdə yaşayacaq, sevgiylə anılacaq, adına şeirlər yazılacaq, mahnılar qoşulacaq, yeni doğulan körpələrə Mübariz adı veriləcək. Çünki xalq Vətən uğrunda şəhid olanları heç vaxt unutmur.***

Daxili Qoşunların hərbi qulluqçuları da şəhidlərimizi hər zaman ehtiramla anır və məzarlarını ziyarət edirlər. Torpaqlarımızın bütövlüyü uğrunda son damla qanınadək vuruşan, öz ölümü ilə ölümsüzlüyü qazanan Milli Qəhrəmanımız Mübariz İbrahimovun dəfn edildiyi gündən altı il keçməsinə baxmayaraq, hər il məzarı önündə ehtiramla anılır.

Noyabrın 7-də Daxili Qoşunların hərbi qulluqçuları şəhidimizin məzarını ziyarət ediblər. Daxili Qoşunların Baş İdarəsindən və 99713, 67987, 25031 saylı hərbi hissələrdən hərbi qulluqçular II Fəxri Xiyabana gələrək onun məzarı üzərinə tər qərənfillər düzüblər. Mübariz İbrahimovun şücaəti haqqında xidmətə yeni qəbul olunan əsgərlərə məlumat verilib. Ürəyi Vətən sevgisiylə alışıb yanan, illər öncə Daxili Qoşunların müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuş qəhrəmanımızın keçdiyi döyüş yolunun müasir gənclərə nümunə olduğu vurğulanıb.

Qeyd olunub ki, ömrünün 22-ci baharında uzun müddətdən bəri düşündüyü planını həyata keçirmək məqsədilə düşmənlə təmas xəttini keçərək, mənfur düşmənə sarsıdıcı zərbələr vuran qəhrəmanımız təkbaşına döyüşüb, düşmənin ağlasığmaz sayda zabit və əsgərini məhv edib. Yağı düşməni sözün əsl mənasında vahimə içərisində saxlayan igidimizin cəsədi 141 gündən sonra ölkəmizə təhvil verilib və noyabrın 7-də böyük ehtiramla II Fəxri Xiyabanda dəfn olunub.

Fəxrlə qeyd etmək lazımdır ki, günü-gündən qüvvətlənən Azərbaycan Ordusunun Mübariz kimi oğulları çoxdur və onların hər birinin qəlbi Mübariz kimi vətənə sevgi, məhəbbət hissləri ilə döyünür. Və gün gələcək bu oğullar həm Mübarizin, həm onun kimi şəhid olan neçə-neçə oğullarımızın qisasını alacaqlar!

**leytenant N.Ağayeva**

*Azərbaycan tarixinin qanlı səhifələrindən biri –*

# 20 NOYABR FACİƏSİ...

***1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən "Mİ-8" helikopterinin vurulması Azərbaycanın bir sıra görkəmli dövlət və ictimai xadimlərinin həyatına son qoydu. Onlar sülh missiyası ilə Qarabağa səfər etmişdilər. Daha dəqiq desək, noyabrın 7-də Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan həmsədrlərinin görüşü zamanı Dağlıq Qarabağ ərazisində gedən müharibədə mövcud vəziyyət müzakirə edilir. Qərara alınır ki, real şəraitlə tanış olmaq məqsədilə Xankəndiyə getsinlər. Nümayəndə heyəti əvvəlcə Ağdama üz tutur və bir neçə saat sonra helikopterlə Xocavənd üzərindən birbaşa Xankəndiyə istiqamət götürürlər.***

***Helikopter Xocavəndin Qarakənd kəndi səmasında vurulur.***



Faciə zamanı həlak olanlar arasında müxtəlif məsul vəzifələri tutan şəxslər, jurnalistlər və hərbçilər də vardı: Milli Məclisin deputatı, dövlət katibi Tofiq İsmayılov, baş nazirin müavini, millət vəkili Zülfi Hacıyev, dövlət müşaviri Məhəmməd Əsədov, baş prokuror İsmət Qayıbov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, meliorasiya və su təsərrüfatı nazirinin birinci müavini Qurban Namazəliyev, Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) prokuroru İ.Plavski, Milli Təhlükəsizlik Nazirliyinin DQMV üzrə idarəsinin şöbə rəisi S.İvanov, DQMV Daxili İşlər İdarəsinin rəisi V.Kovalyov, DQMV fövqəladə vəziyyət rayonunun komendantı N.Çinkin, dövlət katibinin köməkçisi R.Məmmədov, Azərbaycan Respublikası Dövlət Teleradio Şirkətinin əməkdaşları Alı Mustafayev, Arif Hüseynzadə və Fəxrəddin Şahbazov, Rusiya Federasiyasından olan müşahidəçilər-general-mayor M.Lukaşov və polkovnik-leytenant V.Koçarov, Qazaxıstan Respublikasının Daxili İşlər Nazirinin birinci müavini S.Serikov və 3 nəfər ekipaj üzvü.

Bu dəhşətli terror aktından sonra helikopterin qara qutusu oxunmaq üçün Moskvaya aparılmış, ekspertiza zamanı müəyyən olunmuşdur ki, qara qutunun lenti helikopterin partlaması nəticəsində yaranmış 700 dərəcədən artıq temperaturun təsirinə məruz qaldığından yanmış və son uçuş barədə bütün təfsilatları araşdırmaq mümkün olmamışdır.

Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Qarakənd üzərində 300 metr yüksəklikdə uçan helikopter həmin gün saat 14:42-də vurulub. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də ötürülür. Lakin nə qədər maraqlı olsa da bu faciə haqqında xəbər Xankəndidə erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə saat 15:30-da yayımlanmışdı.

Sonradan bəlli oldu ki, "Mİ-8"-ə "Barret M82A1" silahından atəş açılıb. Məlumat üçün qeyd edək ki, silahın tərkibində birləşmiş uran izotopu (U-238) var. 50 kalibri, tərkibində nüvə olan bu nişangahlı silahla 2 km məsafədə hərəkət edən təyyarələri, helikopterləri, həmçinin, zirehli maşınları sıradan çıxarmaq mümkündür.

Azərbaycan terrordan əziyyət çəkən bir ölkə kimi bütün dövrlərdə terrorizmə qarşı mübarizədə fəal və prinsipial mövqe nümayiş etdirməkdədir. Bu gün Azərbaycan beynəlxalq antiterror koalisiyasının fəal üzvlərindən biridir.

Bütün terror qurbanlarına Allah rəhmət eləsin!

**"Əsgər"**